Layihənin istiqaməti: Regionların sosial-iqtisadi inkişafının təşviq edilməsi

# REGİON

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ YANINDA KÜTLƏVİ İNFORMASIYA VASITƏLƏRININ İNKİŞAFINA DÖVLƏT DƏSTƏYİ FONDU

№ 15 (1143) 26 yanvar - 27 yanvar 2016-cı il

# XOŞ SORAĞI GƏLƏN YARDIMLI

(əvvəli ötən sayımızda)

**İndi havaların belə sərt keçdiyi bir məqamda Yardımlının mənzərəsi daha da ürək açır. Təbii ki, hər fəslin öz gözəlliyi var. Amma mənə elə gəlir ki, Yardımlıya qış daha çox yaraşır. Çünki bu bəyazlıq və bu təbii naxışlanma adamın bütün ruhunu oxşayır. Ağacların budağını yerə gətirən qardan tutmuş kolların arasına özünü təpən sərçələrə qədər hər şey bir-birini elə tamamlayır ki, gözünü təbiətdən, gözəllikdən ayırmaq istəmirsən. Hələ məktəbə tələsən uşaqların hay-küyü və bir də Bakının küçələrində şütüyən avtomobillərin buradakı ağır ləngərli hərəkətləri istər-istəməz həyatı bir dinc axara yönəldir. Özünü həm rahat, həm sərbəst, həm də bu gözəlliyin qoynunda az qala ölümsüz təsəvvür edirsən...**

**"... Azərbaycan bölgədə sabitlik, təhlükəsizlik adasıdır, inkişaf məkanıdır. Azərbaycanda bütün xalqlar bir ailə kimi yaşayırlar. Bu da bizim böyük üstünlüyümüzdür, böyük dəyərimizdir. Biz bunu qiymətləndirməliyik və ölkəmizdə yaşayan bütün xalqlar arasında bu qardaşlığı, dostluğu daha da möhkəmləndirməliyik. Bu, bəlkə də bizim ən böyük sərvətimizdir".**

***Azərbaycan Respublikasının Prezidenti***
***İlham Əliyev***

Bəli, Yardımlını belə havada gəzməyi yəqin ki, nə demək olduğunu bilənlər bilir. Amma bilməyənlər üçün deyim ki, qara, ətrafdakı sakitliyə baxmayaraq burda şaxta səni xəncər kimi kəsib doğramır. Əksinə, o səni elə bil ki, müalicə edir və sən də bu yerin gözəlliyinin aurasında insanların yaratdığı gözəlliyi də görürsən. Bu gözəllik isə tikilən sosial obyektlər, çəkilən, genişləndirilən yollar, salınan körpülər, rahat səkilər və bir də işıq, qaz, su, rabitə əlaqəsidir.

Biz Yardımlıda olanda öyrəndik ki, rayonda təkcə "kənd investisiya layihəsi" çərçivəsində xeyli işlər görülüb və bu işlərin ən önəmli tərəfi ondan ibarət olub ki, bəzi bölgələrimizdən fərqli olaraq Yardımlıda rayon mərkəzindən daha çox kəndlərə diqqət ayrılır. Əsas məqsəd kənd yollarını, kəndlərin abadlığını, enerji, su, qaz təminatını daha da yaxşılaşdırmaq, adamların həyat səviyyəsini yüksəltmək olubdu. Ona görə də bu gün 4 min nəfərdən artıq əhalisi olan Osanakəran, Bürzümbül, Bərgədüz və Binə kəndlərinə "Sineyir" adlanan ərazidən su xəttinin çəkilməsi həmin dediyimiz problemin aradan qaldırılmasında mühüm rol oynamışdı. Elə bunun ardınca da həmin ərazidən çəkilən su xəttinin daha 20 kilometr uzanaraq əlavə 14 kəndi də su ilə təmin etməsi üçün xeyli işlər görülməkdədir. Bu gün isə faktiki olaraq həmin su xətti artıq 5 yaşayış məntəqəsinin problemini çözübdü. Eyni zamanda rayon ərazisində əlavə 10-a yaxın artezian quyusu qazılmışdı ki, bu quyuların da suyu borularla yaşayış massivlərinə yönəldilmiş və insanların içməli suya olan ehtiyacının aradan qaldırılmasında müəyyən addım kimi qiymətləndirilmişdi. Ümumiyyətlə isə rayonda içməli su probleminin həlli üçün öncədən icra hakimiyyətinin başçısı Sevindik Hətəmovun rəhbərliyi altında hazırlanmış plan-layihə uğurla davam etdirilir.



Adətən dağ rayonlarında müəyyən uçqunların, sürüşmələrin nəticəsində daha çox yollar, elektrik xətləri ziyan çəkir. Bax, bu problemin də çözümü üçün bu gün rayonda müvafiq addımlar atılır. Əldə etdiyimiz bilgilərə görə, daha dəqiq ifadə etsək, bizi Yardımlı ilə yaxından tanış edən Şəmsəddin müəllimin söhbətlərindən aydın oldu ki, rayon əhalisinin eletrik enerjisi ilə təminatını yaxşılaşdırmaq məqsədi ilə 25 min ədəd dəmir dayaq basdırılmışdır ki, bu da elektrik xətlərinin davamlılığını xeyli artırmışdı. Üstəlik, rayondakı böyük yaşayış məntəqələrinə 60 ədədə yaxın yeni transformator quraşdırılmış və yaxud köhnələri yenisi ilə əvəz edilmişdir.

Təbii ki, görülən işlər arasında dağ rayonun 12 yaşayış məntəqəsinə qaz xəttinin çəkilməsi, kənd evlərində qaz sobalarının ailələrə rahatlıq gətirməsi çox sevindirici haldır. Bu görülən işlər ölkə rəhbərinin, yəni cənab İlham Əliyevin Azərbaycan insanına göstərdiyi diqqətin bariz nümunəsidir. Yeri gəlmişkən, onu da xatırlatmaq olar ki, bu gün Yardımlı rayonunda avtomobillərin bütün məntəqələrə fasiləsiz hərəkəti təmin olunmuş və yollarda xüsusi briqadalar yarana biləcək hər hansı bir problemi aradan qaldırmağa hazırdı.



Qışın bu oğlan çağında Yardımlının rabitə əlaqəsində də heç bir problem yoxdur. Təbii ki, bunun bir səbəbi də elektron ATS-lərinin sayının 19-dan 24-ə çatdırılmasıdır. Bu da imkan verir ki, rayonun 7 yaşayış məntəqəsi istisna olunmaqla qalan bütün ərazilərində fasiləsiz və normal rabitə sistemi işlək vəziyyətdə olsun.

Bəli, bu gün Yardımlıda görülən bu işlərin sırasında təhsil, səhiyyə, mədəniyyət sahələrinə də ayrılan diqqət ürəkaçandı. Təbii ki, burada əsas yeri gənc nəslin təlim-tərbiyəsi tutur. Elə bu vacib şərhi nəzərə alan rayon rəhbərliyi, rayonda fəaliyyət göstərən pedaqoji kollektivlər şagirdlərin dərsə davamiyyətindən tutmuş onların biliklərə yiyələnməsi üçün gərəkli olan hər bir tədbiri vaxtında gerçəkləşdirir və müasir avadanlıqlarla məktəblərin təmin edilməsinə çalışırlar. Ona görə də digər bölgələrimizdə olduğu kimi, Yardımlıda da kompüter siniflərinin şagirdlərin ixtiyarına verilməsi, müəllimlərin dərslərin tədrisində kompüterlərdən istifadə etməsi adi hala çevrilibdi. Onu da xatırlatmaq yerinə düşər ki, Yardımlıda səhiyyə işçilərinin də iş şəraiti günbəgün yaxşılaşdırılır. İstər xəstəxana və tibb məntəqələrinin tikilməsi, yenidən qurulması işləri, istər dərman preparatları ilə təminat məsələsi ardıcıl olaraq diqqət mərkəzində saxlanılır. Ona görə də bu gün rayondan digər bölgələrə və şəhərlərə sağlıq durumu ilə bağlı müraciət edənlərin sayı xeyli azalıbdı. Yəni savadlı həkim kadrları və müasir müalicə üsulları indi yardımlıların necə deyərlər, öz evlərinin içində onların qulluğundadır.

Bəli, Yardımlıda həyat həm öz axarı ilə, həm də onu nizamlayan, yönəldən layiqli kadrların rəhbərliyi və nəzarəti altında davam edir.

***Əbülfət MƏDƏTOĞLU***

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ YANINDA KÜTLƏVİ İNFORMASİYA VASİTƏLƏRİNİN İNKİŞAFINA DÖVLƏT DƏSTƏYİ FONDUNUN MALİYYƏ YARDIMI İLƏ